# İcra hakimiyyətinin başçısı

| | |
|---|---|
| **Ordubad Rayon İcra Hakimiyyətinin**<br>**Başçısı**<br>**Rəcəb Zakir oğlu Rəhimli** |  |

Rəhimli Rəcəb Zakir oğlu 12 avqust 1973-cü ildə Ordubad rayonunun Dırnıs kəndində anadan olmuşdur. 1990-cı ildə Naxçıvan şəhəri 39 nömrəli orta məktəbini bitirmişdir. 1999-cu ildə Türkiyə Respublikası, Ankara şəhəri Qazi Universiteti, İqtisadiyyat və İdarəetmə Elmləri Fakültəsinin "Dövlət İdarəçiliyi" ixtisasının **Bakalavr** (Dövlət xətti ilə) pilləsini, 2002-ci ildə Türkiyə Respublikası, Qazi Universiteti, İqtisadiyyat və İdarəetmə Elmləri fakültəsinin "Dövlət İdarəçiliyi" ixtisası üzrə **Magistratura** (Dövlət xətti ilə) pilləsini, 2008-ci ilə Ankara Universiteti Siyasət Elmləri fakültəsi (SBF) – "Siyasət elmi və dövlət idarəçiliyi" ixtisası üzrə – **Doktorantura** (Dövlət xətti ilə) pilləsini bitirmişdir. "Azerbaycanda memurlar: haklar, yükümlülükler, ve denetim" mövzusunda dissertasiya müdafiə edərək doktorluq elmi dərəcəsini, eyni zamanda 2007-ci ildə Azərbaycan Milli Elmlər Akademiyası İnsan hüquqları üzrə Elmi-tədqiqat İnstitutunda "Siyasi institutlar, etnosiyasi konfliktologiya, milli və siyasi proseslər" ixtisası üzrə "Azərbaycanda yerli özünüidarənin yaranması və inkişafı (siyasi aspekt)" mövzusunda dissertasiya işini müdafiə edərək siyasi elmlər namizədi alimlik dərəcəsini, 2011-ci ildə isə siyasi institutlar və sistemlər ixtisası üzrə dosent elmi adını almışdır.

Əmək fəaliyyətinə 2001-2003-cü illər Türkiyə Respublikasının Ankara şəhərində Azərbaycan Respublikası Təhsil Nazirliyinin tələbə təmsilçiliyi (ictimai əsaslarla) ilə başlamış, 05 fevral 2004-cü il tarixdən 03 may 2004-cü il tarixə Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi "Beynəlxalq əlaqələr" şöbəsində baş mütəxəssis, 03 may 2004-cü il tarixdən 08 sentyabr 2010-cu il tarixə Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin Rəyasət Heyətində Elmi katib, 08 sentyabr 2010-cu il tarixdən 02 may 2011-ci il tərixə Azərbaycan Milli Elmlər Akademiyası İnsan Hüquqları üzrə Elmi Tədqiqat İnstitutunun "Milli təhlükəsizlik və erməni araşdırmaları" şöbəsində şöbə müdiri, 03 may 2011-ci il tarixdən 03 sentyabr 2012-ci il tarixə Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində İqtisadi Araşdırmalar Elmi Tədqiqat İnstitutunun "Sosioloji tədqiqatlar və konsaltinq" şöbəsində böyük elmi işçi, 03 sentyabr 2012-ci il tarixdən 01 iyul 2023-cü il tarixə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası "Elmi təşkilat və beynəlxalq əlaqələr" şöbəsində şöbə müdiri, 02 noyabr 2020-ci il tarixdən 05 avqust 2023-cü il tarixə kimi Azərbaycan Respublikasının Prezidenti yanında

Dövlət İdarəçilik Akademiyası “Dövlət qulluğu və kadr siyasəti” kafedrasında kafedra müdiri vəzifələrində çalışıb.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 05 avqust 2023-cü il tarixli Sərəncamı ilə Ordubad Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsinə təyin edilmişdir.

Siyasi elmlər üzrə fəlsəfə doktoru, Dosent elmi dərəcələri var. 87 elmi əsərin, o cümlədən xaricdə və respublikamızda nəşr olunmuş 4 monoqrafiyanın, 4 kollektiv kitabın həmmüəllifi, ali məktəblər üçün 1 dərsliyin həmmüəllifidir.

Ailəlidir, 2 övladı var.